


AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

20 fevral 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 7 (3719)


# Ağdam ağ günə çıxır

## Dağıntılar üzərində müasir şəhər qurulur

**Ağdam şəhəri bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin fevralın 18-də Ağdama növbəti səfəri bunu bir daha əyani şəkildə göstərdi.**



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam şəhərində olarkən "Hilton Garden İnn" hotelində, Ağdam Muğam Mərkəzində, 1268 mənzilli 2-ci yaşayış kompleksində, 1 nömrəli körpələr evi-uşaq bağçasında və 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış oldular.

Qeyd edək ki, ümumi sahəsi 14 hektara yaxın olan 1268 mənzilli 2-ci yaşayış kompleksi Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş Baş Planına uyğun salınıb. Burada tikilən yaşayış binalarındakı mənzillərdən 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü isə dördotaqlıdır.

Ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunur. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.

Dövlət başçısı və birinci xanım "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitlə maraqlanıblar, Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə də tanış olublar. Daha sonra Prezident "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib, "Azərişıq" ASC-nin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzini işə salıb. Rayonun dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi mühüm infrastruktur layihələrinin başında gəlir. Qısaca deyə bilərik ki, Ağdamda hazırda böyük tikinti bumu yaşanır.

Göründüyü kimi, xarabalıqlar üzərində yeni, müasir Ağdam qurulur. "Böyük Qayıdış" proqramı çərçivəsində Ağdam şəhəri və kəndlər yenidən tikilir, infrastruktur layihələri icra olunur, yollar inşa edilir, yeni istehsal müəssisələri yaradılır, yaşıllıqlar salınır, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənir. Prezidentin işğaldan azad olunmuş ərazilərə hər səfəri regionun dirçəlməsi üçün ən vacib infrastruktur layihələrinin icrası, tarixi-mədəni, dini abidələrin bərpası ilə müşayiət olunur və "Böyük Qayıdış"ı addım-addım yaxınlaşdırır.

Ekspertlər qeyd edirlər ki, bu səfərlər həmin rayonlara böyük qayıdışın başlandığını dünyaya göstərir. Həmçinin həmin ərazilərdə ermənilərin törətdiyi vandallığı ardıcıl olaraq dünyanın diqqətinə çatdırır. Azərbaycan cəmiyyətinə mesaj verir ki, bu torpaqlarda quruculuq işləri davam etdirilir, insanlarımız orada yaşamağa başlayırlar. Prezident quruculuq işlərinin miqyasını da göstərir. Hər kəs görür ki, burada nə qədər genişmiqyaslı işlər həyata keçirilir.

İlk növbədə bu torpaqlar üzərində Azərbaycan suveren hüququnu bir daha təsdiq edir. Beynəlxalq ictimaiyyətə Azərbaycanın öz ərazi bütövlüyünü əldə etdiyini, onu qoruduğunu, həmin bölgələrin çox vaxt keçmədən abad, diqqəti cəlb edən bölgələr olacağına dair mesajlar çatdırılır. Prezident səfər edərkən həmin zonaların minalardan təmizlənməsi, komunikasiyaların qurulması, böyük köçə hazırlığın vəziyyətini birbaşa yerində yoxlayır.

Bu səfərlər Azərbaycanın öz tarixinə, köklərinə bağlı olan dövlət olduğunu göstərməklə yanaşı, müasir dövlət olduğunu, müasir inkişafdan geri qalmadığını, bütün digər dinlərə, mədəniyyətlərə hörmətlə yanaşdığını da nümayiş etdirir.

# Xankəndinin Zəfəri

## Şəhərdə yeni park yaradılır

Prezident İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib.

Dövlətimizin başçısı Xankəndidə əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında da iştirak edib. Hoteldə 50 nəfər işlə təmin olunub. Həmin gün Prezident Azərbaycan - Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyətilə də tanış olub. Ümumilikdə burada 800 iş yeri yaradılacaq.

# Qarabağda turizm dirçəldilir

## Əsasən sosial layihələr gündəlikdədir

Qarabağın işğaldan azad olunmasından qısa müddət ötməsinə baxmayaraq, bu tarixi torpaqlarımızın dirçəldilməsi prosesi sürətlə davam etdirilir. Bu prosesdə diqqət yetirilən əsas sahələrdən biri də işğaldan azad olunmuş ərazilərimizdə turizmin inkişaf etdirilməsidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdam şəhərində tikintisi ilə tanış olduqları "Hilton Garden İnn" hoteli də buna mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti nümunəsidir.

# Yeni səfirlər gəlib

## Etimadnamələrini təqdim ediblər

Prezident İlham Əliyev fevralın 13-də Paraqvay, Belarus və Türkiyə respublikalarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirlərinin etimadnaməsini qəbul edib. Prezidentin səfirlərlə söhbətində ikitərəfli münasibətlərin inkişafına, əməkdaşlığın daha da genişləndirilməsi məsələlərinə diqqət çəkilib. Görüşdə Paraqvayla əsasən parlamentlərarası, mədəni, humanitar əlaqələrin inkişaf etdirilməsi, Belarusla innovativ texnologiyalar, tibb, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, Türkiyə ilə qardaşlığın, dostluğun, Cənubi Qafqazda və onun hüdudlarından kənarda sabitliyin qorunması məsələlərinə toxunulub.

# Rəsmi xəbərlər

- Təhlükəli qida məhsullarını istehsal edənlər, satışını təşkil edənlər və ya satış məqsədilə saxlayanların 10 ilədək müddətə azadlıqdan məhrum edilməsi təsdiqlənib. Prezident İlham Əliyev fevralın 17-də bununla bağlı Cinayət Məcəlləsi və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunu imzalayıb.
- Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçuları təltif edilib. Prezident İlham Əliyev bununla bağlı fevralın 13-də Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev fevralın 14-də Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncam imzalayıb.
- Bu il Azərbaycanın görkəmli rəssamı, dəzgah boyakarlığının banisi Mirzə Qədim Məhəmmədhüseyn oğlu İrəvaninin 200 iliyi qeyd olunacaq. Fevralın 14-də Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

# Qayıdış haqqımızdır

## Qərbi Azərbaycana Qayıdış Konsepsiyası uğurla həyata keçiriləcək

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsindən ötən bir il ərzində ölkəmizdə bütün sahələrdə olduğu kimi, müəllifi olduğu Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının həyata keçirilməsində uğurlu nəticələr müşahidə olunmaqdadır.

Prezident İlham Əliyevin bir neçə il öncə Qərbi Azərbaycan İcmasının inzibati binasında Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşməsi və orada səsləndirdiyi fikirlər Qayıdış Konsepsiyasının hazırlanmasına rəvac verdi və "Yol xəritəsi"ni müəyyənləşdirdi. Onun tövsiyə və tapşırıqlarına uyğun olaraq, görülən işlər nəticəsində icmanın sənədləri BMT-də bu təşkilatın rəsmi sənədi kimi yayılıb.

Həmçinin Qərbi Azərbaycanın həqiqətlərinin dünyada tanıdılması istiqamətində mühüm tədbirlər həyata keçirilir və bir sıra ölkələrdə forumlar təşkil edilir.

Son 200 ildə Azərbaycan xalqına qarşı bizə məxsus torpaqlarda aparılan soyqırımı siyasəti, törədilən çoxsaylı cinayətlər sonradan ört-basdır edilib. Amma illər keçsə də, xüsusilə etnik zəmində həyata keçirilən cinayətlər gizli qalmır və üstü zaman-zaman açılır. Tarix heç bir cinayəti bağışlamır. Vurduğu yaraların izləri incitsə də, ədalət sonunda zəfər çalır. Çünki ilahi ədalət deyilən bir şey var. Bizim qələbələrimiz və uğurlarımız hələ qarşıdadır.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi və uzaqgörən siyasəti nəticəsində Azərbaycan hərb meydanında qələbəsini diplomatik sahədə davam etdirir. Aparılan səmərəli danışıqların yekunu olaraq Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədi razılaşdırılır. Qazaxın işğal altında qalan kəndlərinin dinc yolla qaytarılması isə Azərbaycanın 44 günlük Vətən müharibəsində, 2023-cü ilin sentyabrında Qarabağda həyata keçirdiyi antiterror tədbirləri ilə qazandığı Zəfərin davamı, ölkəmizin suverenliyinin təmin olunmasında daha bir önəmli addım idi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz gündən-günə inkişaf edir, Ordumuz güclənir, müdafiə və təhlükəsizlik tədbirləri genişləndirilir. Çünki iqtisadiyyatı və ordusu güclü olan dövlət hər zaman bir addım öndədir. Azərbaycan xalqı da Vətən müharibəsində olduğu kimi dövlətinin, Ordusunun yanındadır, həmrəydir. Xalq-dövlət-ordu birliyi isə böyük qüvvədir və biz məhz bu qüvvənin sayəsində döyüş meydanında Zəfər çaldıq, adımızı tarixə yazdıq. Zəfərindən sonra yeni dövrdə inkişaf yolunda inamla irəliləyən Azərbaycanın nüfuzu durmadan artır.

Əvvəldən əsas hədəflərimiz torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin və tarixi ədalətin bərpa olunması, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışı idi. Bu hədəfə artıq nail olunub.

Növbəti hədəf isə tarixi torpaqlarımız olan Qərbi Azərbaycana qayıdışdır.


Hüququn zirvəsində... 2

Qürur ünvanı, güvən yeri 3

Meyar etibarı və etibarlı qorumaqdır 3

Polis mayorunun uğuru 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Silah alınması elektronlaşdırılır

Mülki silahın alınması proseduru elektronlaşdırılır. Bu, Prezidentin təsdiqlədiyi Xidməti və mülki silah haqqında Qanuna edilən dəyişiklikdə əksini tapıb. Qanuna edilən əlavəyə əsasən, sənədləri Elektron Hökumət İnformasiya Sistemi (EHİS) vasitəsilə müvafiq dövlət orqanından əldə edilməsi mümkün olduqda, həmin sənədlər vətəndaşdan tələb edilməyəcək. Belə sənədlərin EHİS-dən əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi vətəndaşın razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından tələb olunacaq və ya vətəndaş tərəfindən təmin ediləcək.

### Zəngəzur - Naxçıvan yolu müzakirə olunub

Baş nazir Əli Əsədov fevralın 17-də Tehran şəhərinə işgüzar səfəri çərçivəsində İranın birinci vitse-prezidenti Məhəmməd Reza Areflə görüşüb. Görüşdə Avtomobil və dəmir yolları bağlantılarının yaradılması, İran ərazisindən keçməklə Şərqi Zəngəzur - Naxçıvan nəqliyyat infrastrukturunun tikintisi, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişaf etdirilməsi və digər birgə layihələrin icra vəziyyəti nəzərdən keçirilib.

### Qərbi azərbaycanlılara dəstək

Gəncədə "Ağsaqqalların və gənclərin Qərbi azərbaycanlılara dəstək" mövzusunda regional konfrans təşkil olunub. Konfransda çıxış edən natiqlər Qərbi Azərbaycandan olan yüz minlərlə insanın hüquqlarının bərpası və onların öz ata-baba yurdlarına qayıdışının həyata keçirilməsi istiqamətində ciddi addımların atıldığını vurğulayıblar.

### Turist axını olub

Son 5 ildə Azərbaycana ən böyük turist axını 2024-cü ildə qeydə alınıb. Bu say 1 855 113 nəfər olub. Daha ətraflı desək ötən il Azərbaycana gələn turistlərin sayı əvvəlki ilin göstəricisinə nisbətən 32,3% və ya 452 513 nəfər çox olub. Bu artım Azərbaycanın turizm potensialının gücləndiyini, beynəlxalq bazarda daha cəlbedici məkanlardan birinə çevrildiyini və turizm sahəsində həyata keçirilən strategiyaların uğurla nəticələndiyini göstərir.

### Səfir kursantlarla görüşüb

Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev Rusiya Daxili İşlər Nazirliyinin Moskva Universitetində təhsil alan azərbaycanlı kursantlarla görüşüb. Görüşdə kursantlara Azərbaycan - Rusiya münasibətlərinin hazırkı vəziyyəti, Azərbaycanın xarici siyasəti haqqında məlumat verilib. Görüş kursant Əli Məmmədovun Royalda Bethovenin "Patetik Sonata" əsərinin ifası ilə başa çatıb.

### Cəbrayıla qayıdış

Növbəti köç karvanı ilə Cəbrayıl şəhərinə çatan ailələrə evlərinin açarları təqdim olunub.Bu mərhələdə Cəbrayıla 42 ailə köçürülüb. Ailələr qarşılandıqdan sonra onlara mina və partlamamış silah sursatların təhlükəsi barədə ətraflı məlumat verilib. Tanımadıqları naməlum əşyalar və cisimlərdən uzaq durmaları və belə hallarla qarşılaşdıqları zaman aidiyyəti qurumlara xəbər vermələri tövsiyə olunub.

### Sahibkarlara növbəti güzəşt edildi

Sahibkarlıq sahəsində yoxlamalar daha 1 il dayandırılıb. Yaxın 1 ildə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, dövlətin təhlükəsizliyinə və iqtisadi maraqlarına təhlükə yaradan hallar üzrə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən yoxlamalar aparıla bilər. Qanunun müddəaları korrupsiya cinayətlərinin araşdırılması ilə əlaqədar Baş Prokurorluğun apardığı yoxlamalara şamil edilmir.

### Valyutamız borcumuzdan dəfələrlə çoxdur

Azərbaycanın valyuta ehtiyatları 71 milyard dollar məbləğində olmaqla xarici dövlət borcunu təqribən 14 dəfə üstələyir. Maliyyə Nazirliyinin məlumatına görə, xarici dövlət borcunun 86,1 faizi ABŞ dolları, qalanı digər valyutalardadır. Ölkə başqsı da dəfələrlə bildirib ki, Azərbaycan istəsə bir gün ərzində bütün borcu sıfırlaya bilər.

### Proqram genişləndiriləcək

Azəbaycanda özünüməşğulluq proqramının əhatə dairəsi 4 dəfəyə yaxın artırılır. Bu il 9,2 min işsiz və işaxtaran şəxsin özünüməşğulluq proqramına cəlb edilməsi planlaşdırılır ki, bu da ötən illə müqayisədə 3,7 dəfə çoxdur. Qeyd edək ki, ümumilikdə ötən dövrdə 95 mindən çox işsiz və işaxtaran şəxs özünüməşğulluq proqramına cəlb olunub.

# Vəzifə layiqli xidmətdir

## DİN-in vətəndaşa xidmətlər missiyası təkmilləşdirilməkdədir

Vətəndaşların müraciətlərinə baxılmasına Daxili İşlər Nazirliyi həssas yanaşır. Dövlət nümayəndəsi olaraq polis ictimai təhlükəsizliyin qarantı olmaqla, vətəndaşı hüquqazidd əməllərdən və zorakılıqdan qoruyur. Polis neqativ təzahürlərə qarşı barışmazdır və prinsipial mövqeyi ilə seçilir. Çünki, hər bir vətəndaş bilir ki, təhlükəyə məruz qaldıqda onun ilk ümid yeri polisdir.

2024-cü ildə 6055, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 4.468 vətəndaş qəbulu fəaliyyətin vətəndaş yönümlü olmasını bir daha təsdiqləyir. Vətəndaşı narahat edən məsələlərin əksəriyyətinin yerində və müsbət




həlli ictimai məmnunluq yaradır. Ötən il "102" Xidmətinə, qaynar xətlərə daxil olan, sosial şəbəkələrdə yayımlanan müraciətlərə çevik reaksiya verilib, göstərilən elektron xidmətlər müasir tələblərə uyğun təkmilləşdirilib.

Dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən "E-Polis" mobil tətbiqi yaradılıb ki, "Elektron Xidmətlər Portalı" üzərindən 31 adda dövlət xidməti göstərilir. Təsadüfi deyil ki, "E-Polis" tətbiqindən onlayn aktiv istifadəçisi sayı 500 minə çatıb.

Ölkədə cinayətkarlıqla mübarizədə, asayişin və təhlükəsizliyin təmini işində əldə edilmiş müsbət nəticələr Daxili İşlər Nazirliyinin əməkdaşlarını arxayınlaşdırmır, şəxsi heyət suverenliyini tam təmin edən ölkəmizdə xalqa xidmət funksiyalarını layiqincə həyata keçirir.

# Hüququn zirvəsində...

## Uğurlu təhsil peşəkar xidmətin təməlidir

**Polis Akademiyası hazırda ölkəmizin bütün ali təhsil müəssisələri arasında hüquq sahəsinin flaqmanıdır. Bu, sadəcə olaraq, iddialı sözlər deyil. Xüsusi təyinatlı bu təhsil ocağı artıq uzun müddətdir hüququn nəzəri və praktiki əsaslarını yüksək səviyyədə tədris edir.**

Ötən ilin sonunda kursantlarımız 9 ali təhsil müəssisəsi arasında keçirilmiş olimpiadanın qalibi olmaqla bunu bir daha təsdiqlədilər.

"Qalib Azərbaycan" adlı 2-ci Hüquq Olimpiadası Azərbaycan Prezidentinin doğum gününə həsr edilmişdi. Elmi hüquqi bilikləri əhatə edən yarışmada gələcəyin polis zabitləri bütün mərhələlərdə sahəvi sualların cavablandırılmasında birincilik nümayiş etdirmişdilər.

Akademiyanı uğurla təmsil edən 4-cü kurs kursantlardan ibarət komandanın üzvləri ilə həmsöhbət olub, onların olimpiada haqqında təəssüratlarını, hazırlıq mərhələsi və qazandıqları uğurun sirrlərini öyrənməyə çalışmışıq.

Polis kiçik serjantı Azər Tapdıqlının sözlərinə görə, bu, onların ardıcıl ikinci qalibiyyətidir, ilk yarışda da birinci olublar. Yarışa hazırlaşarkən də öncəki qalibiyyəti qoruyub saxlamağı hədəfləyiblər: "Zirvədə qalmaq zirvəyə qalxmaqdan daha çətindir. Məqsədimiz o idi ki, zirvədən enməyək".

Müsahibimiz deyir ki, suallar konstitusiya hüququ, cinayət hüququ və mülki hüquq sahələrini əhatə edib. Kursantlar əvvəlcədən öz aralarında müsabiqə təşkil edib, seçim əsasında yarışa gedənləri müəyyən ediblər. Buna görə yarışın bütün mərhələlərində ən yüksək nəticəni Akademiyanın hazırlıqlı komandası göstərib: "Birinci test, ikinci yazılı, üçüncü isə kazus mərhələsi oldu. Cavabları yoxlayan münsiflər bilmirdi ki, sualları hansı komanda cavablandırıb. Bu da yarışın obyektivliyini təmin edirdi. Bütövlükdə deyə bilərəm ki, bizi qalibiyyətə əzmkarlıq çatdırdı". Artıq sınaq mərhələsində çox güclü komanda yarada bildiklərinin şahidi olduqlarını qeyd edən Yunis Əliyev finalda - yarışmanın kazuslar mərhələsində çətinlik yaşaya biləcəklərini düşünüb. "Həm cinayət, həm konstitusiya, həm də mülkü hüquq sahəsi üzrə 3 kazus verilmişdi.



Hakimlərin real icraatında olan işlər idi. Münsiflər də hakimlər idi. Ancaq Akademiyada verilən təhsil bizi orada çətinlikdən qorudu. Müəllimlərimizin öyrətdikləri son mərhələdən də qalib ayrılmağımızı təmin etdi", - deyir gələcək polis zabiti.

Akademiyanın müəllim - professor heyətinin kursantların hazırlanmasına sərf etdikləri əməyə komanda üzvləri xüsusilə toxunurlar. Bütün tədris illəri boyunca müəllimlərin onlara bilik, elm aşılamalarını minnətdarlıqla qeyd edən Cavid Məmmədli bunu olimpiadanın ikinci mərhələsində daha çox hiss etdikərini vurğulayır: "Yazılı prosesdə müəllimlərin öyrətdikləri bizi qalibiyyətə aparan əsas faktorlardan biri oldu. Öyrəndiklərimiz, sistemli yazı şəklindəki cavablarımız sayəsində digər universitetləri qabaqlaya bildik".

Əsasən də Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası və Dövlət İdarəçilik Akademiyasının komandaları ilə başabaş mübarizə getdiyini deyən müsahibimiz daha dolğun və əhatəli, əsaslandırılmış cavablarla rəqiblərini üstələyə bildiklərini söyləyir.

Bu fikri İsa Qafarov da dilə gətirir: "İkinci mərhələdə biz yerli qanunvericiliklə yanaşı, beynəlxalq qanunları, qanunvericiliyin şərhini yazmalı idik. Cavablarımızda Avropa İnsan Hüquqları, Beynəlxalq Arbitraj, Beynəlxalq Cinayət məhkəmələrinin qərarlarına istinad edirdik. Düşünürəm ki, bu, münsiflərin bizə daha yüksək bal verməlırinə səbəb oldu. Əlbəttə, rəqiblərimiz də bunları yazırdı, ancaq biz daha artığını etmişdik".

Komandanın digər üzvü Aqşin Mamedov Akademiya rəhbərliyinin onlara göstərdiyi diqqət və qayğıya, yüksək etimada diqqət çəkir. Bu isə həm də böyük məsuliyyət demək idi: "Bunun nəticəsində finalda ən yaxın rəqibimizi 4 xal qabaqlamaqla qalib gəldik. Bizim bu qalibiyyətimizdə daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun Akademiyaya, Akademiya rəhbərliyinin və müəllimlərin də bizə böyük dəstəyi, etimadı rol oynadı. Olimpiadanın nəticəsi bir daha təsdiq edir ki, yüksək hüquq təhsilli polis zabitinin hazırlanması üçün Akademiyada böyük imkanlar yaradılıb".

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Polislər izah edir...

## Gənclərlə keçirilən maarifləndirici görüşlər geniş vüsət alıb

Paytaxtın Rayon Polis İdarələrinin təşkilatçılığı ilə 187, 96, 125, 231, 243 və 73 saylı tam orta məktəblərdə maarifləndirmə tədbirləri keçirilib.







"Narkomaniya ümumbəşəri bəladır", "Sağlam gələcək naminə narkomaniyaya yox deyək!", "Erkən nikaha yox deyək!", "İnternetdən təhlükəsiz istifadə" və "Kibertəhlükəsizlik" mövzularında keçirilən tədbirlərdə orta məktəblərin pedaqoji heyəti və yuxarı sinif şagirdləri iştirak edib. Tədbirlərdə çıxış edən polis rəisləri narkomaniyanın özünəqəsdin ən ağır forması olduğunu, onun gələcəyimizi təhdid etməsini, həmçinin internet üzərindən sərhədlər aşmasını dərin narahatlıq hissi ilə qeyd ediblər. Bu istiqamətdə mübarizə tədbirlərinin kəsərini artırmaq üçün maarifləndirmənin vacibliyinin diqqət mərkəzində olduğuna diqqət çəkən natiqlər hüquq mühafizə orqanlarının, dövlət və qeyri-hökumət təşkilatlarının, bir sözlə, gələcəyimizi sağlam görmək istəyən hər kəsin bu bəşəri bəla ilə mübarizə aparmaq üçün səfərbər olunduğunu bildiriblər.

Şagirdlərə erkən nikahın fəsadları, eləcə də internetdən təhlükəsiz istifadə qaydaları barədə də geniş məlumat verilib. İnternetin faydalı informasiya ötürücüsü olmaqla yanaşı, həm də kiber təhlükə, ictimai təhlükəli əməllərə sövq edilmə riski və təhdidlərin mövcud olduğu qlobal məkan olması diqqətə çatdırılıb, kibertəhlükəsizlik mövzusunda ətraflı məlumat verilib. Tədbirdə ali təhsil almaq arzusunda olan şagirdlərə Polis Akademiyasına kursant qəbulu qaydaları barədə məlumat verilib, Akademiyada ali hüquq təhsili almağın, eləcə də daxili işlər orqanlarında xidmətin üstünlüklərindən bəhs edilib.

Kürdəmirdə də polis əməkdaşlarının iştirakı ilə maarifləndirici tədbirlər davam etdirilir. Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə növbəti tədbir S.Dəmirov adına Karrar kənd tam orta məktəbində keçirilib.

Yuxarı sinif şagirdlərilə görüşdə Polis Şöbəsinin şəxsi heyətlə iş üzrə rəis köməkçisi polis polkovnik-leytenantı Namiq Mustafayev, baş əməliyyat müvəkkili polis polkovnik-leytenantı Elman Bünyətov və inspektor polis baş leytenantı Gülşən Əhmədova iştirak edib.

Məktəblilərə narkomaniyanın fəsadları ilə bağlı geniş məlumat verən polis əməkdaşları bu dəhşətli bəlanın xüsusən gənclər üçün təhlükəli olduğunu, narkotik vasitələrdən istifadənin cinayətkarlıq hallarına yol açdığını və müxtəlif sağalmaz xəstəliklər törətdiyini, ailələri dağıtdığını izah ediblər. İnternetdə zərərli meyillərin də təbliğ edildiyinə diqqət çəkən məruzəçilər, onlayn narkotik satışı, zorakılıq, şəxsi məlumatların oğurlanması kimi təhdidlərə qarşı ayıq-sayıq olmanın əhəmiyyətindən bəhs ediblər.

Şagirdlərə Polis Akademiyası haqqında, gənclərin orada təhsil almaq imkanları barədə də məlumat verən şöbə əməkdaşları ölkənin ən qabaqcıl, güclü maddi-texniki bazaya malik bu xüsusi təyinatlı təhsil ocağında peşəkar kadrlar hazırlandığını bildiriblər.

Diskusiya şəraitində keçən görüşdə şagirdlərin sualları cavablandırılıb. Qeyd edək ki, analoji tədbirlər ölkənin müxtəlif şəhər və rayonlarında da keçirilib.

# Qürur ünvanı, güvən yeri

## Döyüşən gəncliyin qazandığı tarixi Zəfər əsrimizin rəmzinə çevrilib

**Yadelli, işğalçı, təcavüzkar, qəsbkar. Bu söz sırasının sayını xeyli artırmaq olar. Tarix kitablarından oxuduğumuz bu sözlərin mənasını anladan, onun hansı səbəbdən dilimizdə belə özünə yer elədiyini özündə ehtiva edən faktların, tarixi həqiqətlərin müasiri babalarımız, nənələrimiz, heç ata və analarımız da olmayıb. Yeni sonuncu işğaldan, cümhuriyyətimizin süqutundan sonra dünyaya gələnləri beynəlmiləlçi ruhda böyüdüb yetişdirənlər yuxarıda sadaladıqlarımı 70 il boyunca tarix yaradan babalarımızın təmiz adına onları ləkələmək üçün yamaq ediblər.**

Ötən illər ərzində elə mühit formalaşdırdılar ki, bizi adımızla çağıranda onu özümüzə həqarət bildik, öz dilimizdə danışmağa utandıq. Qopartdılar bizi ilkinliyimizdən, keçmişimizdən.

Öz gözündən düşənlərin faciəsi ona görə dəhşətli olur ki, o sonradan düşdüyü ucalığa bir də qalxa bilmir. Çünki onu həyatın dibindən irəliyə doğru itələyən qüvvə kökdən güc alır, ümid yerinə çevrilə biləcək işıq özü azadlığa çıxmaq üçün səmt axtarır, yön arayır.

Yaradanın danıldığı böyük Məkanın elə onun yaratdıqlarının əli ilə də dağıdılacağı qaçılmaz idi. Sərhədləri eyni köklü, eyni qanlı, eyni adlı xalqlara sipərə çevrilən imperiya son nəfəsində belə ayırmaq, öldürmək, qan tökmək üçün çaba göstərsə də xalqlar Azadlıq adlı qibləni tapmışdılar. Uğrunda tökülən qanlar bihudə deyildi…

Yasamal RPİ-nin Post-Patrul Xidmətinin əməkdaşı polis serjantı Zellabdin Abbasov XX əsrin doxsanıncı illərinin odunun-alovunun səngidiyi, Qarabağda Atəşkəs əldə edildiyi bir dönəmdə, daha doğrusu, 1997-ci ildə Bakıda doğulsa da illər sonra müstəqilliyini yenicə qazanan dövlətin bir parçası olan Naxçıvanın, onun Ermənistanla sərhəd olan bölgələrinin, xüsusən də Sədərəyin ermənilər tərəfindən hər gün atəşə tutulduğunu, o istiqamətdə ağır döyüşlərin getdiyini atasının dilindən eşidəcəkdi. Çünki müharibə elə həqiqətdir ki, onu nağıl kimi danışmaq olmur. Həmkarımın tarixdən dərs götürdüyü bu fikrindən bəllidir: “Müasir tariximizə “Sədərək döyüşləri” kimi düşmüş o ağır və ağrılı günləri təkcə nax-





çıvanlılar deyil, Azərbaycan xalqı unutmur, yaddan çıxarmır”...

Onun da ailəsində hər kəsin müharibə adlı dünyası olub. Atasının gördüyü yuxuların rənginə demək olar ki, böyükdən-kiçiyə hamı bələnib. İllər sonra özü şahidi olacaqdı ki, döyüşən oğulları səngər qorumur, səngəri döyüşən oğullar qoruyur.

Həmin illərə isə hələ çox vardı. Zellabdin Səbail rayonundakı 49 nömrəli İntellekt liseyini bitirdikdən sonra Türkiyədə universitetə qəbul olunsa da müəyyən səbəblərdən təhsilini yarımçıq qoyub Vətənə qayıdır və 2019-cu ildə hərbi xidmətə yollanır. Raket Artilleriya Briqadasının “N” saylı hərbi hissəsində xidmət edir. Hərbi xidmətin bitməyinə 6 aydan az bir vaxt qalmış Vətən müharibəsi başlayır.

Müharibədə raket və artilleriyanın nəyə qadir olduğu hər kəsə məlumdur. Zellabdin deyir ki, ön cəbhədə ordumuzun, əsgərlərimizin düşmən mövqelərini darmadağın etməsinə çox böyük töhfə veriblər. Onların qüsursuz “əl işi”, Ağgöldən, Taxtakörpüdən və Füzulinin bəzi kəndlərindən hədəflərin hətta düşmənin mövqeləndiyi dərinliklərdə belə dəqiqliklə vurulması müharibənin də, düşmənin də ömrünü günbəgün qısaldırdı.

Zellabdin müharibə barəsində tamam fərqli düşünür. Düzü, onun “Müharibə mənim üçün gözəl hissdir”, - deməsi mənə də çox qəribə gəldi. Axı müharibə deyəndə gözümüzün önünə ölüm, itim, qan gəlir. Müharibə haqqında çəkilmiş filmləri belə adam həyəcansız izləyə bilmir. O da ola müharibənin, o dəhşətin içində olasan. Müharibənin yaratdığı qorxuya həmkarımın "etinasız" yanaşmasına onun “general-mayor Polad Həşimovun şəhadətindən sonra biz tamamilə dəyişdik”,- fikri nöqtə qoyur. Təlimlərdə qazanılan təcrübə müharibənin gedişatına təsirsiz ötüşmür. Vətən müharibəsinə qədər torpaqlarımızın azad olunması üçün ölkəmizin bütün mümkün vasitələrdən istifadəsinin qarşılığına düşmənin yeni ərazilər işğal etmək cəhdi müharibəni qaçılmaz etdi. Düzdür, sevdiklərimizi, doğmalarımızı itirdik. Bu müharibədə isə Zellabdin kimi oğulların alın yazısı XXI əsrin qəhrəman gəncliyi olaraq tarixə yazılmaq idi…

Həmkarımız tərxis olunduqdan sonra polisin sıralarına qoşulmaq üçün oktyabrda DİN-ə müraciət edib. Üstündən azadlığın-barıt qoxusunun ətri gələn gənc daxili işlər naziri general-polkovnik cənab Vilayət Eyvazovun sıra baxışında olur. Seçim turunun növbəti mərhələsindən sonra arzusu gerçəkləşib. Özü dediyi kimi: “Könlümün gözünün seçdiyi peşə polisdir”…

Yasamal RPİ-nin rəhbərliyinin də barəsində dediyi sözlər onun məsuliyyətli, verilən işin öhdəsindən gələn əməkdaş olduğunu gözlər önünə sərir. Bayır xidmətinin polisin siması olduğu həqiqətini xidmətində rəhbər tutub vətəndaşlarla ünsiyyətdə və münasibətdə polisin etik-davranış kodeksinin bütün müddəalarına əməl etməyə çalışır.

“Müharibənin qorxub çəkinəsi tərəfi yoxdur. Ya ölməlisən, ya qalmalısan”, - deyən həmkarımız müharibədə düşmənə qarşı bülövlədiyi nifrətinin yerini ötən illər ərzində xidməti anda sayğının, hər an vətəndaşı xilas edəcək sevginin, köməyə, xeyirxahlığa tələsmək arzusunun tutduğunu bildirir. Əsgər andından öncə Vətən andı içən belə gənclərimiz qürur ünvanı, güvən yerimizdir.

*Hafiz Təmirov*
*polis polkovniki*

# Meyar etibarı və etibarlı qorumaqdır

## Peşəkarlara həvalə olunan xidmət vətəndaşları məmnun edir

Sahibi olduğu obyektləri, əmlakı qorumaq üçün təhlükəsizlik tədbirlərindən biri kimi DİN BMİ-nin Nizami Rayon Mühafizə İdarəsi ilə müqavilə bağlamasından məmnunluğunu Daxili İşlər Nazirliyinə ünvanladığı təşəkkür məktubunda ifadə edən yüzlərlə vətəndaşdan biridir “Embawood” MMC-nin Baş direktoru E.Abbasov. O, sahibi olduğu MMC-nin Babək prospektindəki mağazalarından birində baş verən yanğının qarşısının vaxtında alınmasına, həmçinin öz vəzifə borclarının öhdəsindən layiqincə gəldiklərinə görə Nizami Rayon Mühafizə İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Hadisənin təfərrüatlarına gəlincə, həmsöhbətimiz olan İdarənin rəis müavini polis mayoru Akif Yadigarov diqqətimizə çatdırdı ki, bir müddət öncə, daha dəqiq desək, ötən ayın sonlarında axşam saatlarında Nizami Rayon Mühafizə İdarəsi tərəfindən MMM-lə mühafizə olunan İlqar Həbibov küçəsi 55 ünvanında yerləşən “Embawood” mebel mağazasından həyəcan siqnalı daxil olub. Dərhal dislokasiya üzrə tutucu qrupun polis nəfərləri, polis baş serjantı Vidadi Əliyev və polis serjantı Pərviz Bayramov özlərini həmin ünvana çatdırıblar.

Polis əməkdaşları obyektə baxış keçirərkən mağazanın içində tüstülənmə olduğunu müşahidə ediblər. Vaxt itirmədən RMİ-nin Növbətçi hissəsinə, FHN-nin çağrı mərkəzinə və obyekt sahibinə məlumat veriblər. Onlar ilkin olaraq obyektin giriş qapısını sındırıblar. Sonra içəri daxil olub elektrik lövhəsindən cərəyanı ayıraraq baş verən yanğının FHN-nin yanğınsöndürmə briqadaları gələnə qədər ətrafa yayılmasının qarşısını alıblar.

Beləliklə, polis əməkdaşlarının ayıqlığı və sayıqlığı sayəsində 4 mərtəbəli 1600 kvadratmetrlik obyektin tamamilə yanmasının qarşısı alınıb. Yanğın yalnız 15 kvadratmetrlik texniki otağı əhatə edib.

Vətəndaş məmnunluğu ilə müşahidə olunan bu fakt polisin vətəndaşa təhlükədən yaxın olmasının, həmçinin rayon ərazisində mülkiyyət sahibləri ilə maarifləndirici görüşlərin keçirilməsinin, onlarla izahedici işlərin mütəmadi aparılmasının bariz nümunəsidir.

# Dövlət qurumları ilə birgə tədbirlər keçirilib

## Ekoloji təhlükəsizlik qaydaları diqqətdə saxlanılır

Polis əməkdaşları tərəfindən digər dövlət qurumları ilə birgə ekoloji təhlükəsizlik qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər davam etdirilir.

Paytaxtın Xətai rayonu ərazisindəki bir iaşə obyektində ətraf mühitə atılan zərərli maddələrin normativdən artıq olması və atmosfer havasının mühafizəsi sahəsində qanunvericiliyin pozulması aşkarlanıb.

Nərimanov rayonunda da eyni hal qeydə alınıb. Həmin obyektlərin icarədarları barəsində inzibati tənbeh tədbirləri tətbiq edilib.

Balakən rayonunda keçirilən tədbir zamanı isə restoranlardan birinin həyətində obyekt sahibi tərəfindən 19 ədəd müxtəlif növ ağacın kəsilməsi faktı ilə bağlı təhqiqata başlanılıb. Yerin təkindən qanunsuz istifadə edən 1, məişət tullantılarını urnalardan kənara atan 3 nəfər barəsində inzibati tənbeh tədbiri görülüb.

Zaqatala, Oğuz və Şəki rayonlarının bir neçə kəndi ərazisində qanunsuz yolla ağac kömürü istehsal edən quyular aşkar edilib. Qanunsuz kömür istehsal etdiyinə görə 3 nəfər barəsində inzibati tənbeh tədbiri tətbiq edilib.

Bundan başqa Şəki şəhəri ərazisində məişət tullantılarını urnalardan kənara atdıqlarına görə 2 nəfər barəsində inzibati tənbeh tədbiri görülüb, Mazıx kəndi ərazisində 2 ədəd ağacın kəsilməsi ilə bağlı isə araşdırma aparılır.

*"Polis"*

# Xilaskarlar...

## Biz onlara etibar edirik

Dövlətin dayaqlarının möhkəmlənməsindən, cəmiyyətin həyatını müsbət məcraya yönəldən ali dəyərlərdən danışarkən ilk yada düşən şübhəsiz ki, inam və etibar anlayışı olur. Məhz buna görə də yüz illər öncə Konfutsi deyirdi ki, inam olmadan nə dövlət, nə də cəmiyyət yaşaya bilər.

Keçirilən rəy sorğularında vətəndaşlarımız dövlətə və onun qurumlarına münasibətlərini sərgiləyiblər. Münasibət sərgilənən qurumların ən başında əlbəttə ki,



hüquq mühafizə orqanları gəlib. Xüsusən Azərbaycan polisinin fəaliyyətinə yönələn diqqət bu qurumun gecəli-gündüzlü xidmətini özündə ehtiva edən müsbət rəylərlə yadda qalıb.

Çəkinmədən deyə bilərik ki, Azərbaycan cəmiyyətində gələcəyə olan böyük inamın formalaşmasında təhlükəsizliyin əsas təminatçısı olan Azərbaycan polisinin çox böyük rolu var. Elə bir neçə gün öncə baş verən hadisə özlüyündə bir daha təsdiq etdi ki, vətəndaş ən çətin anında polisə üz tutur, polisdən kömək umur. Oxucularımız adətən belə xəbərləri “Polislər halı pisləşən sürücünün köməyinə çatdılar”, “Səhhəti pisləşən sürücünün köməyinə YPX əməkdaşları çatdı”, “Sürücü yol polislərinin bu əməlinə görə DİN rəhbərliyinə müraciət etdi”, “Yol polisi yolunu azan sürücüyə kömək etdi”, “Polis yolda halı pisləşən qadını xilas etdi” kimi və s. başlıqlar altında oxumağa bir növ vərdiş ediblər. İstənilən anda, istənilən yerdə vətəndaşın polisə müraciət etməsi əslində polisin nailiyyətidir…

Belə ki, fevralın 14-də günorta saatlarında Binəqədi rayonu Binəqədi qəsəbəsi Gülməmməd Ramazanov küçəsi ilə hərəkətdə olan Binəqədi RMİ-nin avtopatrul əməkdaşlarından vətəndaş kömək istəyib. O, səhhətində problem yarandığından maşını idarə edə bilməyəcəyini deyib. Xəstənin həyati təhlükəsini nəzərə alan əməkdaşlar onu təcili olaraq xəstəxanaya çatdırıblar. Vəziyyətin ciddiliyi nəzərə alınıb və şəxsiyyəti sonradan məlum olan Həsən Əliyev adlı vətəndaş reanimasiya şöbəsinə yerləşdirilib. Bir neçə gündən sonra evə buraxılan vətəndaş onun həyatını xilas edən Binəqədi Rayon Mühafizə İdarəsinin əməkdaşları polis serjantları Nağı Tağıyevə və Rüfət Qurbanlıya minnətdarlığını bildirib. Qeyd edək ki, xilaskar polislərdən olan R.Qurbanlı Vətən müharibəsi iştirakçısıdır. O, Müzəffər Ali Baş Komandan tərəfindən “Laçının azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunub.

*T.Hafiz*

# Oğurluğa getmişdi

## Narkotikə görə də məhkumluq yaşayıb

Yasamal rayonu ərazisində yerləşən aptekdən 5382 manat dəyərində kosmetik əşyalar oğurlanması barədə polisə məlumat daxil olub. Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə oğurluq əməlini törətməkdə şübhəli bilinən əvvəllər oğurluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş 41 yaşlı C.Məmmədov müəyyən olunaraq saxlanılıb. Nəsimi rayonu ərazisində isə mağazadan 490 manatlıq məhsul oğurlayan 35 yaşlı Z.Əliyev polis əməkdaşları tərəfindən müəyyən edilərək saxlanılıb.

*"Polis"*

# Şübhəlilər saxlanılıb

## Onların arasında keçmiş məhkum da var

Binəqədi rayonu ərazisində mağazalarda quraşdırılan və içərisində 5400 manat maddi vəsait olan 2 ödəmə terminalının oğurlanması barədə polisə məlumatlar daxil olub. Binəqədi RPİ 43-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməlləri törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 29 yaşlı V.Hüseynov müəyyən olunaraq saxlanılıb.

Bundan başqa, Səbail və Nərimanov rayonlarında yerləşən ticarət mərkəzlərində mağazaların birindən 480 manat dəyərində qızıl-zinət əşyası, həmçinin ayrı-ayrı vətəndaşlara məxsus mobil telefonlar və bank kartları oğurlamaqda şübhəli bilinən 30 yaşlı N.Kərimova, 30 yaşlı S.Əsgərov, 28 yaşlı F.Mənsimli və iki yeniyetmənin saxlanılması təmin edilib.

# Keçmiş cinayətləri üzə çıxdı

## “Müştəriləri” də məsuliyyətə cəlb olundu

Nəsimi rayonu Mircəlal küçəsində yerləşən evlərin birinin qarşısından bir nəfərə məxsus motosikletin qaçırılması barədə Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsinə məlumat daxil olub. Keçirilən tədbirlərlə nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən 26 yaşlı K.Məlikov və 22 yaşlı İ.Qambayev müəyyən olunaraq saxlanılıblar. Araşdırmalarla saxlanılan şəxslərin bundan əvvəl də iki nəfərə məxsus mopedləri oğurlaması məlum olub. Bununla yanaşı, mopedləri sökərək satmaq məqsədilə alan 32 yaşlı H.Qurbanlı da polis əməkdaşları tərəfindən saxlanılıb.

# Polis Akademiyasına müsabiqə davam edir

## Şərtlər, yaradılan şərait və perspektivlər






**Daxili İşlər Nazirliyi Polis Akademiyasına əyani təhsilə III qrupdan “Hüquqşünaslıq” ixtisasına 500, I qrupdan “İnformasiya təhlükəsizliyi” ixtisasına 25 kursantın qəbuluna dair müsabiqə elan edir.**

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu 165 sm-dən az olmayan, yaşı 16-dan 18-dək, 11-ci sinifdə oxuyan və ya tam orta təhsilli, həqiqi hərbi xidmətə yararlı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Xüsusi təyinatlı təhsil müəssisəsinə sənədlərin qəbulu 2025-ci il fevralın 23-dək namizədin daimi qeydiyyatda olduğu yer üzrə polis idarə və ya şöbələrində həyata keçirilir.

“Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisas fənləri üzrə müsabiqədən keçən abituriyentlərin siyahısı Dövlət İmtahan Mərkəzinə göndərilir.

İmtahanlar Azərbaycan və rus dillərində keçirilir.

Seçilən abituriyentlərlə daxili işlər orqanlarında xidmət keçmə haqqında müqavilə bağlanır.

Tədris Azərbaycan dilindədir, müddəti 4 ildir.

Kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, Akademiyanın ərazisində yerləşən müasir standartlara tam cavab verən yataqxanada yaşayırlar.

Məzunlara “Hüquqşünaslıq” və “İnformasiya təhlükəsizliyi” ixtisasları üzrə “polis leytenantı” xüsusi və “ehtiyatda olan leytenant” hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Qəbul qaydaları haqqında daha ətraflı məlumatları (012) 590-97-76, (012) 454-12-78 nömrəli telefonlar, habelə Polis Akademiyasının "8880" qaynar xətti vasitəsilə və ya www.mia.gov.az, www.pa.edu.az internet saytlarından, Polis Akademiyasının rəsmi instaqram və feysbuk sosial şəbəkələrindən əldə edə bilərsiniz.**

# Media müsabiqəsi keçirilir

## Müsabiqənin təşəbbüskarı Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasıdır

Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının təşəbbüsü ilə Birlik ölkələrinin dövlət və ictimai qurumları ilə medianın qarşılıqlı fəaliyyətinin gücləndirilməsi, hüquq-mühafizə orqanlarında xidmətin təşviqi və MDB üzvü olan dövlətlərin daxili işlər orqanları əməkdaşlarının nüfuzunun artırılması məqsədi ilə 2025-ci il üçün müsabiqə elan edilir.

Müsabiqədə MDB-yə üzv olan ölkələrin polis və mülki əməkdaşları ilə bərabər 18 yaşından yuxarı olan digər vətəndaşlar da iştirak edə bilərlər.

İştirakçılar müsabiqənin şərtləri və qaydalarına dair ətraflı məlumatla Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin rəsmi internet saytında və Mütəşəkkil cinayətkarlıqla və cinayətkarlığın digər təhlükəli növləri ilə mübarizə üzrə Əlaqələndirmə Bürosunun (MCMƏB) rəsmi internet saytının müvafiq bölməsinə (https://bkbop-cis.ru/galereya/mediakonkurs/) keçid etməklə tanış ola bilərlər.

Müsabiqəyə foto və media işləri üzrə təqdim edilən nominasiyalar aşağıdakılardır.

1. **"Qələbə günü"**
2. **“Doğma diyarın gözəlliyi”**
3. **“Bizim növbəmiz”**
4. **"Postda"**

İşlər rəqəmsal formatda təqdim edilməlidir.

Müsabiqə hər il iki mərhələdə keçirilir.

Müsabiqənin birinci mərhələsi 2025-ci ilin yanvarın 10-dan iyulun 10-dək keçirilir. Bura iştirak üçün ərizələrin göndərilməsi, işlərin qəbulu və seçilməsi daxildir.

İkinci mərhələ 11 iyul - 31 iyul 2025-ci il tarixlərini əhatə edir. Bura müsabiqə komitəsi tərəfindən işlərin qiymətləndirilməsi daxildir.

Müsabiqədə iştirak etmək üçün iştirakçılar ərizələri doldururlar.

Ərizə hər bir iş üçün rus dilində doldurulur və müəllif tərəfindən imzalanır. Ərizədəki bütün sahələrin doldurulması tələb olunur.

*"Polis"*

# Osmanlı sarayının 100 illik sirri:

## Xəfiyyə, yoxsa fotoqraf?

Bütün dünyanı lərzəyə salan, ən böyük imperiya olan Osmanlının əsası 1299-cu ildə müasir Türkiyənin Biləcik vilayətinin Söyüdlü şəhərində Osman bəy tərəfindən Osmanoğulları Bəyliyi kimi qoyuldu. Osmanlı dövləti tarixdə məşhur Bizans İmperiyasına son qoyaraq onun paytaxtı Konstantinopolu ələ keçirərək öz paytaxtına çevirdi. Konstantinopolun adı dəyişdirildi və şəhərə İstanbul adı verildi. XVII əsrdə özünün ən qüdrətli dövrünü yaşayan dövlət üç qitəyə hökmranlıq edirdi. Sözsüz böyük əraziyə hökmdarlıq edən imperiya bu ərazilərdə yaşayan xalqların nümayəndələrinə müəyyən imtiyazlar verirdi.

Bütün xalqlar kimi Osmanlı imperiyasının təbəiliyində yaşayan ermənilər də bu imtiyazlardan istifadə edirdi. Həmişə öz bicliyi ilə ad çıxaran ermənilər isə müxtəlif yollarla öz niyyətlərini həyata keçirirdilər. Ermənilər 26-cı Osmanlı xəlifəsi II Əbdülhəmidin dövründə daha çox əl-qol açmağa başladılar. II Əbdülhəmidin dövründə 1876-1909-cu illərdə ermənilər çox yerdə öz soyadlarını dəyişərək “türkləşmə”yə üstünlük verirdilər. Maraqlıdır ki, məhz bu “türkləşmə” prosesindən sonra ermənilər Osmanlı sarayına yol tapdılar. Onlar həmçinin orduda mühüm vəzifə tutmağa başladılar. Bu, ermənilərin gələcək çirkin planlarının başlanğıcı idi. Məhz Osmanlı sarayına yol tapan və burada məşhurlaşan “türkləşmiş” ermənilərdən biri “Febus Əfəndi” idi. Osmanlı sarayında fotoqraf olan və 23 il burada xidmət edən, sarayın bütün məsələlərindən xəbərdar olan “Febus Əfəndi”nin əsl adı isə Bağoz Tarkulyan idi.

Bağoz Tarkulyan Hacık adlı bir erməni balıqçının oğlu idi. Onun erməni olmasını çoxları bilmirdi. 1880-ci ildə Bağoz Tarkulyan İstanbulda öz emalatxanasını açdı. Uzun illər İstanbulun məşhur rəssamlarından dərslər aldı. Onun tez



bir zamanda məşhurlaşması gələcəyinə açılan qapı idi. Artıq hamı onu “Febus Əfəndi” kimi tanıyırdı. Tez bir zamanda saraya yolu da açıldı. Artıq Osmanlı sultanın onun çəkdiyi rəsmlərə heyran qalması onların möhkəm dostluğuna səbəb olmuşdu.

Elə məhz buna görə “Febus Əfəndi” sarayda ən toxunulmaz adamlardan biri idi. Lakin əsl xislətini gizlədən “Febus Əfəndi” gizlincə öz əməlləri ilə məşğul idi.

Bağoz Tarkulyan 23 il ərzində Osmanlı sarayından məlumatları həm ruslara, həm də ingilislərə, bir müddət isə fransızlara ötürürdü. Bağoz Tarkulyan erməni terroçusu Andronik Ozanyan ilə də dost idi və tez-tez onunla əlaqə saxlayırdı.

Fotoqraf kimi saraydakı bütün hadisələrdən xəbərdar olan “Febus Əfəndi” bu məlumatları mütamadi ermənilərə çatdırırdı. 1890-cı ildə ermənilər üsyan qaldırdılar. Bu üsyanın əsas rəhbərlərindən biri də Andronik Ozanyan idi. Türk ordusuna hərəkət planı haqqında məlumatları “Febus Əfəndi” ermənilərə çatdırır, erməni silahlıları bir çox döyüşdə əsgərləri pusquya salırdılar. 1904-cü ildə türk ordusu erməni üsyanını yatırdıqdan sonra Andronik Türkiyədən qaçmağa məcbur oldu. Lakin “Febus Əfəndi” öz işinin başında idi. O, Rusiyanın Qafqaz ordusunun komandanı general Aleksandr Malışayevski ilə əlaqə quraraq bir müddət rusların Osmanlı sarayında xəfiyyəsi rolunu oynadı. “Febus Əfəndi” Osmanlı sarayında bir çox yüksək rütbəli hərbçilərlə dostluq edir, bəzən onlardan aldığı məlumatları ruslara çatdırırdı. Onun dostluq etdiyi insanlar içərisində Ənvər Paşa da var idi. 1914-cü ildə Ənvər Paşa Sultan Əbdülməcidin nəvəsi Naciyə Sultanla evlənərkən bu toyda fotoları məhz “Febus Əfəndi” çəkirdi. Onun Osmanlı sarayında məlumatları necə ötürməsinin sirri çoxları üçün gizli qalırdı. Lakin erməni casusun gizli üzü 1915-ci ildə açılır. Onun fransız ordusu komandanlığına göndərdiyi məktub ortaya çıxır. Lakin sarayda böyük nüfuza malik olan “Febus Əfəndi” gözəgörünməz əllər tərəfindən qorunur və onun 23 illik fotoqraf-casus görəvi sona çatır. Öz rolunun öhdəsindən layiqincə gələn fotoqraf Bağoz Tarkulyan Parisə qaçmağı bacarır. Onun 1940-cı ildə Parisdə vəfat etdiyi bildirilir.

*Hazırladı: Aytən Tahirova*




2025-ci ilin I yarısı üçün “POLİS”ə, öz qəzetinizə abunə olmağa tələsin!


# Nümayəndə heyətimiz Türkiyədə olub

## Səfər çərçivəsində təcrübə mübadiləsi ilə bağlı müzakirələr aparılıb

Türkiyə Polis Akademiyasının rəisi Murad Balçı, rəis müavinləri və institut rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə qarşılıqlı əməkdaşlığın və təcrübə mübadiləsinin istiqamətləri müzakirə edilib.



Nümayəndə heyətimiz Polis Akademiyasının nəzdində fəaliyyət göstərən Kriminalistika, Təhlükəsizlik Elmləri və Yol Hərəkəti Elmləri İnstitutlarının fəaliyyəti, tədris olunan fənlərin məzmunu, təlim texnologiyaları və təhsil infrastrukturu ilə yaxından tanış olub, tədris prosesinin müxtəlif istiqamətləri və qarşılıqlı əməkdaşlıq haqqında fikir mübadiləsi aparıblar.

Tərəflər yaxın gələcəkdə Türkiyə Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyası ilə birgə elmi-praktik konfransların, dəyirmi masaların, həmçinin onlayn dərslərin keçirilməsi, aktual mövzularla bağlı birgə elmi araşdırmaların aparılması və tədris resurslarının hazırlanması, professor-müəllim heyətinin müasir təlim metodları ilə bağlı bacarıq və vərdişlərinin artırılması məqsədilə Azərbaycan Respublikası DİN-in Polis Akademiyasında “Təlimçilərin təlimi” kurslarının təşkili, tədrisinə ehtiyac duyulan kriminalistika, kibercinayətkarlıq, informasiya təhlükəsizliyi və digər istiqamətlər üzrə Türkiyə Polis Akademiyasında təşkil edilmiş kurslarda pedaqoji heyətin iştirakının təmin edilməsi, o cümlədən hər iki ölkənin Polis Akademiyalarının elmi hüquq jurnallarında Türk və Azərbaycan dilləri üzrə bölmələrin yaradılması və elmi məqalələrin dərc olunmasının həyata keçirilməsi ilə bağlı razılığa gəliblər.

# Polis mayorunun uğuru

## O, şahmat üzrə ölkə çempionu oldu

Şahmat üzrə Azərbaycan çempionları müəyyənləşib. İki həftə ərzində kişilər arasında keçən gərgin mübarizədə Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin İdman Şöbəsinin rəisi polis mayoru Rauf Məmmədov çempion adını qazanıb.



Yarımfinalda Teymur Rəcəbovu, finalda Şəhriyar Məmmədyarovu məğlub edən həmkarımız bu uğuruna 6-cı dəfə nail olub.

Qadınların mübarizəsində isə Günay Məmmədzadə növbəti dəfə 1-ci yerə layiq görülüb. Kişilərin yarışında Şəhriyar Məmmədyarovla Misrətdin İskəndərov müvafiq olaraq 2-3-cü yerləri bölüşdürüb.

Qadınlarda isə Gövhər Beydullayeva gümüş, Gülnar Məmmədova bürünc medalçı olub.

# Müdriklərin söz xəzinəsi

## Döyüşdə qılıncı borc verməzlər

Bu günü anlamaq üçün keçmişi bilməlisiniz.

❖❖❖

Bizim hərəkətlərimiz bizi ən uca göylərə qaldıra və eyni zamanda endirə bilər.

❖❖❖

Cahillər çoxalan zaman ariflər qərib olur.

❖❖❖

Ağıllı adam dəlini danlamaz.

❖❖❖

Hər dövranın bir hökmü var, hər zamanın bir qələmi.

❖❖❖

Qaranlıq işığın yoxluğundan, kölgə işığın çoxluğundan törəyir.

❖❖❖

Ən böyük zəfər məğlub etdiyin tərəfin həm də qəlbini fəth etməkdir.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik